# Quba Venesiyadan necə gözəl ola bilər

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında bir daha qeyri-neft sektorunun inkişafının vacibliyini vurğuladı. İqtisadi islahatların dönməzliyini qeyd edən dövlət başçısı bu sırada turizmin inkişafına da fərqli yanaşma nümayiş etdirdi: “Əsas məsələ turizm sənayesini yaratmaqdır. Bizim gözəl iqlimimiz, yay aylarında Xəzər sahili, qış aylarında dağlar, xizək kurortları var. Bizim çoxlu tarixi abidəmiz var. Nəinki Bakıda, bütün bölgələrdə müasir infrastruktur, hotellər, yollar var. Ona görə bu istiqamətdə görüləsi işlər hələ çoxdur”. Əgər dövlət başçısı turizmin sənaye relslərinə keçirilməsini günün aktual məsələsi kimi elan edirsə, deməli, bunun üçün ciddi əsaslar mövcuddur.





Hər bir xalq öz tarixində və ənənələrində ona başucalığı və fəxarət gətirən dəyərlərlə öyünməklə yanaşı, həm də iqtisadiyyatın inkişafına təkan verə bilən məqamlardan maksimum faydalanmalıdır. Bu baxımdan xalqımızın qonaqpərvərliyi xüsusi diqqət və araşdırma tələb edən ciddi mövzudur. Ölkəmizə təşrif buyuran dövlət xadimləri, rəsmi qonaqlar, müxtəlif beynəlxalq tədbirlərin iştirakçıları və hətta sıravi turistlər belə xalqımızın qonaqpərvərliyinə heyran qalır, minnətdarlıqlarını ifadə edirlər. Həmişə sonsuz təşəkkürlərini bildirən əcnəbilərə qulaq asanda üzlərinin ifadəsinə fikir verəndə hiss etmək olur ki, belə qonaqpərvərliklə onlar çox nadir hallarda rastlaşırlar.



Biz isə bəzən bu qonaqpərvərliyin qədərindən artıq olmasından gileylənir, bir qədər də özümüzü qınayırıq. Lakin məsələyə bir az fərqli yanaşdıqda görürük ki, turizmin inkişafı üçün Azərbaycan qonaqpərvərliyi bənzərsiz brenddir və bu brendə söykənmək, onu bir qədər də cilalayaraq inkişaf etdirmək və ondan yaralanmaq mümkündür.

Müxtəlif ölkələrdə iqtisadiyyatın inkişafını nəzərdən keçirəndə onların hər birinin yalnız bir neçə istiqamətdə güclü inkişaf etdiyini görürük. Yaponlarda foto və videokameraların, ispanlarda geyimin, almanlarda texnika və maşınların, ingilislərdə bağ avadanlığının, ABŞ-da şouların digər ölkələrə nisbətən yüksək olmasının yalnız bir başlıca səbəbi var. Yaponların şəkil və videolarda həyatlarının vacib məqamlarını çəkib xatirə kimi qorumağı, ispanlar geyimə aludəliyi, almanların texnika sevgisi, ingilislərin bağ avadanlıqlarına, amerikalıların isə şoulara bağlılığı onlara məhz bu sahələri inkişaf etdirməyə imkan verib. Başqa sözlə desək, hər bir xalq öz genetik yaddaşında nəyin vurğunudursa, onu da hamıdan irəli aparmaq gücünə qadirdir. Dünyanın ayrı-ayrı ölkələrində iqtisadiyyatın inkişafını öyrənən tədqiqatçılar belə qənaətə gəliblər ki, hər bir xalq özünə, milli mentalitetinə daha yaxın olan, daha çox sevdiyi sahədə böyük uğurlar qazanır. Məşhur iqtisadçıların gəldiyi bu qənaəti ölkələrin inkişaf düsturu kimi də qəbul edə bilərik. Saysız iqtisadi uğurlara imza atan Azərbaycan üçün qeyri-neft sektorunun şaxələndirilməsi ciddi məsələdir. Bu baxımdan dövlət başçısının turizm sənayesinin yaradılması təşəbbüsü ilə çıxış etməsi vaxtında səslənən təklifdir. Çünki indiyədək Azərbaycanda turizmin inkişafı üçün xeyli işlər görülmüşdür və artıq ondan bəhrələnmək zamanıdır. Məsələn, turizm üçün xarakterik olan sahələrə qoyulan investisiyaların həcmi əgər 2009-cu ildə 527 milyon manat idisə, bu rəqəm sonrakı ildə iki dəfəyə yaxın artmışdır. Bu məbləğ 2011-ci ildə 1,4 milyard, 2014-cü ildə 2,2 milyard manatı keçmişdir. 2004-2013-cü illərdə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 238-dən 530-dək, otaqların sayı isə 9827-dən 16559-a çatmışdır. Bu gün Azərbaycanda 250-dən çox turizm şirkəti fəaliyyət göstərir. Son 10 ildə ölkəmizə gələn turistlərin sayı 5 dəfədən çox, yüksək kateqoriyalı hotellərin sayı 2 dəfə artmışdır. Gələcəkdə Azərbaycanın inkişaf etmiş turizm ölkəsinə çevrilməsi üçün güclü maddi-texniki baza qurulmuşdur. Ölkədə 14 dövlət təbiət qoruğu, 8 milli park və 22 qoruq fəaliyyət göstərir. Azərbaycan ərazisinin 3,1 faizi milli parklara məxsusdur. Yerli, respublika və dünya əhəmiyyətli qorunan tarixi və mədəniyyət abidələrinin sayı 6000-ə yaxındır.

Lakin turist üçün ölkənin ümumi görünüşü də vacibdir. Bu anlayışa paytaxt və regionların ümumi mənzərəsi daxildir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Əcnəbilər bu şəhəri səhərdən-axşamadək piyada gəzməkdən zövq alırlar. Müasir Avropa memarlığının bənzərsiz nümunələri, tarixi binalar və abidələr, şəhərin təhlükəsizliyi, sadə və mehriban insanların qonaqpərvərliyi turistlər üçün çox maraqlıdır. Onlar Bakıda özlərini qərib hiss etmirlər. Eyni zamanda regionlarda müasir şəhərsalmanın inkişaf etməsi, yeni memarlıq binalarının inşası Azərbaycanın bütün bölgələrinə turist axınını təmin etməyə imkan verir. İkinci cəzbedici amil əsrarəngiz təbiətdir. Dağ çayları, gur şəlalələr, sərin bulaqlar, Xəzər və Qafqaz sıra dağları, ucsuz-bucaqsız meyvə bağları istənilən turisti valeh etmək gücünə qadirdir. Bütün bu amilləri qonaqpərvərliyimizlə birlikdə xalıya toxuya bilsək, istənilən turisti heyrətləndirən, qəlbini riqqətə gətirən naxışlar alınacaq.

Bununla belə, turizmin inkişafında ölkələrdən asılı olmayan maneələr, qeyri-sağlam rəqabət də mövcuddur. Bu bazarda yer tutmaq, rəqibləri sıradan çıxarmaq üçün bütün vasitələrə, hətta terrora da əl atanlar tapılır. Məhz terror aktlarının artması sayəsində bu gün bir sıra ölkələrdə turist axınının kəskin azalması müşahidə edilir. Bundan başqa, turizm axınının qarşısını almaq üçün ölkənin demokratik imicini ləkələyən kampaniyalara start verilir. Məsələn, biz özümüz I Avropa Oyunları zamanı belə sərt həmlələrə məruz qaldıq.

Belə halların mövcudluğu bir daha təsdiqləyir ki, Azərbaycan turizminin mükəmməl fəlsəfəsi işlənilməlidir. Bu, dünya turizminin bir çox ölkələrdə uğurla tətbiq edilən elementlərindən biridir. Həmin rakursdan yanaşanda bizim əksər xalqlardan seçilən və bütün turistlərin rəğbətini qazanan qonaqpərvərliyimiz, qeyd etdiyimiz kimi, ölkəmizin turizm brendidir. Sadəcə bizə onu layiq olduğu səviyyəyə qaldırmaq qalır. Azərbaycan qonaqpərvərliyinin mükəmməl bir ideya kimi işlənilib dünyaya təqdim edilməsi mütləq fayda verəcək. Çünki turist cəlb etmək üçün ölkəni əcnəbilərə sevdirmək lazımdır. Ölkəni sevdirmək üçün isə birinci qonaqpərvərliyimizi, mədəniyyətimizi Qərbin başa düşəcəyi tərzdə təbliğ etməliyik.



Biz tarixən qonağı yalnız təmtəraqla qarşılayıb yola salmamışıq. Qonağı göz bəbəyi kimi qorumaq, onun təhlükəsizliyini təmin etmək də müqəddəs vəzifəmiz olub. Tariximizdə var ki, qapından keçən qonağın arxasınca gələn düşmənə həmişə sərt cavab verilib. Qonağa görə döyüşüblər də. Belə xırdalıqları bilən əcnəbilər ölkəmizə daha dərindən bağlanırlar.

Tələbə yoldaşım, “İzvestiya” qəzetinin keçmiş baş redaktoru, I Bakı Humanitar Forumunun iştirakçısı Vitali Abramov həyat yoldaşı Lidanın ad gününü keçirməyə Azərbaycana gəlmişdi. Bakını gəzdilər. Sonra onları Qubaya dəvət etdik ki, dağları görsünlər. Yola çıxanda bir qədər ləngidiklərinə görə rayon mərkəzinə çatanda qaranlıq düşürdü. Odur ki, maşını dağlara sarı qovduq ki, zirvələr qaranlıqda əriyənədək qonaqlara göstərə bilək. Lakin maşın Qoşa minarəyə çatanadək dağlar bütün əzəməti və gözəlliyi ilə gecənin qoynunda qeyb olmuşdu. Yolumuzun üstündəki şəlalənin ayağında maşını saxladıb avtomobilin hallogen işıqlarını şəlaləyə tuşladıq ki, heç olmasa bu zülmətin içində qonaqlara nəyisə göstərək. Şəlalənin rəngi dəyişdi, sanki göydən yerə millənən şəlalə deyildi, yerdən göyə axan qucaq dolu süd idi. Hamımız bu gözəlliyə valeh olmuşduq. Lidaya dedim ki, sizə ad gününüzdə vətənimin zirvələrinin gözəlliyini hədiyyə etmək istədim: “Təəssüf ki, ayağınızın altında açılan ən gözəl mənzərələr ətrafınızdakı qaranlığın arxasından başlayır. Dağlar görüşünə gecikənləri bağışlamır. Gərək bir də gələsiniz”. Qubada tonqal qaladıq, Lidanın ad gününü tonqal başında qeyd etdik. O da yarızarafat-yarıciddi ərinə dedi:

- Sən mənimçin heç belə gözəl ad günü keçirməmişdin.

Vitali təəccübləndi:

- Lida, keçən il sənin ad gününü Venesiyada qeyd etmədikmi?

- İncimə, Vitali, əlbəttə, əziyyətini qiymətləndirirəm, lakin biz ora çatanda sənin Venesiyanı su basmışdı, hər gün yağışlar yağırdı... Burada qaranlığın arxasında gizlənən dağların gözəlliyini, göyə ucalan süd sütununu və zülmətin ortasında mənim şərəfimə qalanan tonqalı heç vaxt unudan deyiləm.

Bu söhbəti ona görə xatırladım ki, turist həm də ekzotika və macəralar axtaran adamdır. Azərbaycan isə bu baxımdan, əlbəttə ki, dünyanın heç bir ölkəsindən geri qalmır.

***Bahadur İMANQULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***



